AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# YETKİNLİK YAŞINA ÇATMAYANLAR ARASINDA NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ: CİNAYƏT-HÜQUQİ VƏ KRİMİNOLOJİ TƏHLİL

İxtisas: 5611.01 – Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ

Elm sahəsi: Hüquq

**İddiaçı: Vasif Salman oğlu Quliyev**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

Bakı-2025

Dissertasiya işi Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində yerinə yetirilmişdir.

Elmi rəhbər: Hüquq elmləri doktoru, professor
**Şəhla Tofiq qızı Səmədova**

Rəsmi opponentlər: PhD, professor
**Yener Ünver**

Hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent
**Ağa Kərim Ağa Səlim oğlu Mirzəyev**

Hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Malik qızı Babayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Hüquq elmləri doktoru, professor
**Ayxan Xankişi oğlu Rüstəmzadə**

imza

Dissertasiya şurasının elmi katibi: Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Sahil Zahir oğlu Hüseynov**

imza

Elmi seminarın sədri: Hüquq elmləri doktoru
**Fərdin Yaşar oğlu Xəlilov**

imza

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənilmə dərəcəsi.** XX əsrin sonlarından başlayaraq qloballaşan dünyada sürətlə yayılan neqativ sosial-hüquqi hadisələr sırasında millətin sağlamlığı üçün olduqca təhlükəli olan, ictimai şüuru deformasiyaya uğradan, son illərdə təhlükəli miqyas alan, ölkələrin iqtisadiyyatına ciddi zərər vuran, cəmiyyətin mənəvi-əxlaqi durumuna mənfi təsir edən, milli təhlükəsizliyi sarsıdan narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi xüsusi olaraq qeyd edilməlidir.

Təsadüfi deyildir ki, Ümummilli Lider Heydər Əliyev hələ 1997-ci ildə Bakıda keçirilən BMT-nin Yaxın və Orta Şərqdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə nəzarət və bununla bağlı problemlər üzrə Yardımçı Komissiyanın 32-ci sessiyasının açılışında söylədiyi nitqdə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin ümumbəşəri bir problemə çevrildiyini qeyd etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə məsələlərinə həsr olunmuş beynəlxalq tədbirlərdə çıxış edərkən bildirmişdir: "Coğrafi mövqeyindən, ictimai-siyasi quruluşundan, inkişaf səviyyəsindən, mədəni və tarixi əlaqələrindən asılı olmayaraq, elə bir ölkə yoxdur ki, dövrümüzün qlobal problemlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi ilə qarşılaşmasın". Ölkə başçısı narkomanlığın cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə dağıdıcı təsir göstərən, insanların, xüsusən də yetkinlik yaşına çatmayanların və gənclərin həyat və sağlamlığına ciddi təhlükə yaradan, tamah və zorakı xarakterli cinayətlərin ən təhlükəli forma və növlərinin artmasına səbəb olan kriminogen amillərdən biri olduğunu göstərmişdir.

23 may 2007-ci il tarixli "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"nda da Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər sırasında digərləri ilə yanaşı, transmilli mütəşəkkil cinayətkarlıq, o cümlədən insan alveri, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi də xüsusi olaraq göstərilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində fəaliyyətin hüquqi tənzimlənməsi məqsədilə kifayət qədər mükəmməl qanunvericilik bazası yaradılmış, kompleks xarakter daşıyan tədbirlər sistemi işlənib hazırlanmış və həyata keçirilmişdir. Azərbaycan Respublikası 1992-ci ildə "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" BMT-nin 1988-ci il Konvensiyasına, 1998-ci ildə isə "Narkotik vasitələr haqqında" 1961-ci il Konvensiyasına və "Psixotrop maddələr haqqında" 1971-ci il Konvensiyasına qoşulmuş, ölkədə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə effektiv mübarizənin təşkili və həyata keçirilməsi məqsədilə bir sıra təşkilati strukturlar yaradılmışdır. Belə ki, Ümummilli lider Heydər Əliyevin "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" 26 avqust 1996-cı il tarixli Fərmanı ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, 27 yanvar 1997-ci il tarixli Fərmanı ilə Komissiyanın Əsasnaməsi təsdiq edilmişdir. Azərbaycan Respublikasının 1999-ci il CM-nin Xüsusi hissəsində ilk dəfə olaraq "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər" adlı müstəqil fəsil (26) sistemləşdirilmişdir.

Ümumilikdə, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə sahəsindəki münasibətləri tənzimləyən və ya bu sahə ilə bağlı olan 49 Qanun, həmçinin Azərbaycan Respublikası Prezidentinin 21 Fərmanı, 67 Sərəncamı, Nazirlər Kabinetinin 40 qərarı, 18 sərəncamı, Ali Məhkəmə və Konstitusiya Məhkəməsinin Plenumlarının qərarları, o cümlədən müxtəlif orqanların birgə aktları qəbul edilmişdir. Eyni zamanda fəaliyyət istiqamətinin genişləndirilməsi məqsədilə 2000-ci ildən etibarən respublikanın bütün şəhər və rayon icra hakimiyyətlərində Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyalar yaradılmışdır.

Azərbaycanda narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin sistemli əsaslarla və kompleks şəkildə keçirilməsi məqsədilə 2000-2006, 2007-2012, 2013-2018-ci illəri əhatə edən Dövlət Proqramları qəbul edilərək uğurla icra edilmişdir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2019-cu il 22 iyul tarixli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" təsdiq edilmiş və hazırda uğurla icra edilir.

Dövlət Proqramında yetkinlik yaşına çatmayanlar və gənclər arasında narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasına və profilaktikasına, narkomanlıq bəlasına düçar olmuş yetkinlik yaşına çatmayanların müalicəsi, sosial reabilitasiyası və reinteqrasiyasına hesablanmış bir sıra tədbirlər də müəyyən edilmişdir. Bu da təsadüfi deyildir. Belə ki, son illərin rəsmi statistikası yetkinlik yaşına çatmayanlar və gənclər arasında narkomanlığın və narkotik vasitələrin qanunsuz dövriyyəsinin bir sıra təhlükəli meyillərlə xarakterizə olunduğunu göstərir. Məsələn, 2019-cu ildə 14-17 yaşda olan 9 narkotik istifadəçisi qeydə alındığı halda, 2023-cü ildə onların sayı 14 olmuşdur. Bu ildə ilk dəfə olaraq 14 yaşında olan narkotik istifadəçisi qeydə alınmışdır. 2019-cu ildə 18-24 yaşda olan 1957 narkotik istifadəsi qeydə alındığı halda, 2023-cü ildə onların sayı 2608 olmuşdur. Bu zaman 18-24 yaşda olan şəxslərin müəyyən hissəsinin narkotik qəbuluna daha erkən yaşlardan, yeniyetməlik dövründən başladıqları da nəzərə alınmalıdır. Rəsmi statistikaya əsasən 2023-cü ildə 14-17 yaşda olan 494 şəxsin, onların da 16-nın bilavasitə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət törətdiklərini göstərir. Qeyd edək ki, 2023-cü ildə narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət törədənlərin 524-ü 18-24 yaşda olan şəxslər olmuşdur. Ümumiyyətlə, 2023-cü ildə narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar 10057 cinayət törədilmişdir ki, bu da ölkə üzrə qeydə alınan cinayətlərin 27.3%-ni təşkil edir. Bir sözlə, ən azı hər dörd qeydə alınmış cinayətdən biri narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlıdır.

Göründüyü kimi, Azərbaycanda yetkinlik yaşına çatmayanlar arasında narkomanlıqla bağlı vəziyyət mürəkkəbləşməkdə və kəskinləşməkdə davam edir. Narkotik vasitələrin və psixotrop maddələrin istehlakına cəlb edilən yetkinlik yaşına çatmayanlar cəmiyyətlə pozitiv sosial-əhəmiyyətli əlaqələri itirir və bir çox hallarda narkoasılılıq nəticəsində özləri narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı kriminal əməlləri və digər ictimai təhlükəli cinayətləri törədirlər. Bunu son illərin məhkəmə-istintaq təcrübəsi və statistik məlumatlar da açıq şəkildə göstərir. Bu isə ümumən narkomanlığın, xüsusi halda isə yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizənin elmi zəmin əsasında həyata keçirilməsinin zəruriliyini şərtləndirir.

Bu gün narkotik vasitələr, psixostimulyatorlar və onların istehlakı məktəblərə belə nüfuz etmiş, onlara maraq göstərən istənilən şəxs üçün əlçatan olmuşdur. Narkomanlığın dəhşətli nəticələri, insan orqanizminə dağıdıcı təsiri çox zaman yetkinlik yaşına çatmayanlar tərəfindən lazımi səviyyədə dərk edilmir. Narkomanlığın, yetkinlik yaşına çatmayanlar və gənclər arasında kütləvi, eləcə də intensiv şəkildə yayılması bir çox cəhətdən məhz bu hallarla izah olunur. XX əsrin sonu və XXI əsrin əvvəllərindən başlayaraq yetkinlik yaşına çatmayanlar və gənclər tərəfindən daha təhlükəli olan psixoaktiv maddələrdən istifadə halları artmağa başlamışdır. Bu da yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrdən daha yüksək dərəcədə fiziki və psixi asılılığa, istehlak dozasının daima artırma meyillərinin yaranmasına və son nəticədə onların tez bir zamanda sosial və psixofizioloji deqradasiyaya gətirib çıxarır. Bütün bunlar, məcmu halda yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasına istiqamətlənən cinayət-hüquqi və kriminoloji elmi-monoqrafik araşdırmaların aparılmasının aktuallıq kəsb etdiyini göstərir.

Narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin müstəsna aktuallığı nəzərə alınaraq, hüquqşünas-alimlər tərəfindən bu problemə daima böyük diqqət yetirilmiş, problemin ayrı-ayrı aspektlərinin araşdırılmasına

həsr olunmuş çoxsaylı elmi məqalələr, monoqrafiyalar yazılmış və dissertasiya işləri müdafiə edilmişdir.

Mövzunun işlənmə dərəcisinə gəlincə demək mümkündür ki, narkotik vasitələrin qanunsuz dövriyyəsinin ümumnəzəri, həmçinin kriminoloji və cinayət-hüquqi problemləri, narkocinayətkarlığa qarşı mübarizənin hüquqi aspektləri, narkotik vasitələrin istehlakçılarının və narkocinayətləri törədənlərin şəxsiyyəti və onların tipologiyası, narkomanlığın latentliyi ilə bağlı məsələlər, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin qarşısının alınmasının ümumsosial və xüsusi-kriminoloji aspektləri, təşkilati əsasları B.S. Zahidov, F.M. Cavadov, İ.M. Rəhimov, H.S. Qurbanov, Ş.T. Səmədova, X.C. Ələkbərov, N.T. Əliyev, N.K. Əliyev, A.T.Musayeva, A.İ. Dolqova, M.Pinarçı, Ü.Yener, M.Taştan, Y.Erdener, E.Aksüt və başqaları tərəfindən araşdırılmışdır.

Bilavasitə, yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın profilaktikası məsələlərinə, narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin cinayət-hüquqi və kriminoloji aspektlərinə, bu növ cinayətlərin kriminoloji xüsusiyyətlərinə, yetkinlik yaşına çatmayanlar arasında bu zəmində törədilən cinayətləri doğuran səbəb və şəraitlərin, qeyd olunan şəxslər kateqoriyasının şəxsiyyətinin öyrənilməsinə, yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin istehlakına cəlb etmə hallarının qarşısının alınmasına həsr olunmuş dissertasiya işləri arasında S.L. Panov, V.A. Jabski, A.E. Metsayeva, B.P. Prudnikov, O.P. Rıbalkina, V.N. Drannikov, T.M. Sudakova, İ.V. Kobzeva, T.Q. Qazizova, A.P. Alekseyeva, A.A. Komilov, E.A. Moskina, E.P. Novikova, N.Y. Jilina, İ.Y. Samoxvalov, L.V. Qotçina, R.T. İsmayılov, L.S. Kuzina və başqaları tərəfindən həyata keçirilən monoqrafik araşdırmaları xüsusi olaraq göstərmək olar.

Azərbaycanda da problemin aktuallığı və həlli yollarının müəyyən olunmasının müstəsna əhəmiyyəti nəzərə alınaraq, ümumən narkotik vasitələrin qanunsuz dövriyyəsi və narkomanlıqla, xüsusi halda yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə problemləri dissertasiya işləri səviyyəsində araşdırılmağa başlanmışdır. Belə ki, kriminalistik və cinayət-prosessual aspektlər Ş.Ə. Babayev, S.Y.

Qasımov, S.S. Məmmədov, cinayət-hüquqi və kriminoloji aspektlər isə H.A. Aslanov, Q.H. Əliyev, Ə.H. Həsənov, Ə.S. Bağırzadə, R.T. Nağıyev, B.S. Zahidov, beynəlxalq hüquqi aspektləri isə S.Z. Səbzəliyeva və digərlərinin apardıqları monoqrafik tədqiqatların predmeti olmuşdur.

Eyni zamanda, yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin müasir vəziyyəti, strukturu və dinamikası, yetkinlik yaşına çatmayanların mühitində narkomanlığı doğuran səbəb və şəraitlər, bu sahədə profilaktikanın elmi-nəzəri və metodoloji cəhətdən mükəmməl konsepsiya və strategiyası, yetkinlik yaşına çatmayanlar arasında narkomanlığa qarşı mübarizənin cinayət-hüquqi, kriminoloji və təşkilati-metodiki əsasları hələ də müasir təhlükə və təhdidlərə adekvat olan səviyyədə işlənib hazırlanmamışdır. Bir sözlə, mövzunun aktuallığı və işlənmə dərəcəsi göstərilən məsələlərin araşdırılması zərurətini prioritetə çevirir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyekti yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin qarşısının alınması və profilaktikası sahəsində yaranan ictimai münasibətlərin məcmusudur.

Predmetini isə dünyada, eləcə də Azərbaycanda yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətkarlığın vəziyyəti, strukturu, səviyyəsi və dinamikasını əks etdirən statistik məlumatlar, yetkinlik yaşına çatmayanlar arasında narkocinayətlərin qarşısının alınmasının hüquqi bazasını təşkil edən cinayət-hüquqi və digər xarakterli normalar sistemi, xarici ölkələrin cinayət qanunvericiliyinin normaları, narkocinayətlərə dair işlər üzrə məhkəmə-istintaq təcrübəsi, dissertasiya işi çərçivəsində araşdırılan məsələlər üzrə digər hüquqşünas-alimlərin əsərləri, yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın və narkocinayətlərin qarşısının alınmasının mövcud təşkilati-hüquqi, kriminoloji, sosial-psixoloji və sair xarakterli tədbirlər sistemi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın müasir

vəziyyəti, strukturu və dinamikasının, mövcud meyillərin öyrənilməsi, yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin qanunsuz dövriyyəsini şərtləndirən səbəbiyyət kompleksinin sistemli analizi əsasında narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasına istiqamətlənmiş elmi əsaslı cinayət-hüquqi, sosial-kriminoloji və təşkilati xarakterli tədbirlər kompleksinin işlənib hazırlanmasından, cinayət qanunvericiliyinin təkmilləşdirilməsinin əsas istiqamətlərinin müəyyən edilməsindən, bununla bağlı konkret təklif və tövsiyələrin təqdim edilməsindən ibarətdir.

Qeyd edilən məqsədlərə nail olmaq üçün dissertasiya işində aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin ictimai təhlükəliliyinin xarakter və dərəcəsinin qiymətləndirilməsi;
- Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı əməllərə görə məsuliyyət müəyyən edən xarici ölkələrin cinayət qanunvericiliyinin müqayisəli-hüquqi analizi;
- Yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı əməllərin cinayət-hüquqi qiymətləndirilməsi;
- Azərbaycanda yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın yayılması miqyas və səviyyəsinin müqayisəli statistik-kriminoloji analizi;
- Azərbaycanda yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin vəziyyəti, strukturu və dinamikasının statistik-kriminoloji təhlili;
- Yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsini şərtləndirən səbəb və şəraitlərin, amillər kompleksinin müəyyən edilməsi;
- Yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasının əsas istiqamətlərinin müəyyən edilməsi;

- Yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın və narkocinayətkarlığın qarşısının alınmasına istiqamətlənmiş sosial-psixoloji, hüquqi, təşkilati, xüsusi-kriminoloji və sair xarakterli profilaktik tədbirlər kompleksinin işlənib hazırlanması;

- Ümumən narkocinayətlərə, xüsusi halda isə yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə məsuliyyət nəzərdə tutan cinayət qanunvericiliyinin təkmilləşdirilməsinin əsas istiqamətlərinin müəyyən edilməsi;

- Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə görə məsuliyyət nəzərdə tutan cinayət qanunvericiliyinin ayrı-ayrı normalarının təkmilləşdirilməsi ilə bağlı konkret təkliflərin və tövsiyələrin formulə edilərək əsaslandırılması;

- Azərbaycan Respublikasının CM-nin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər" adlanan 26-cı fəslinə dəyişiklik və əlavələrin təklif edilməsi.

**Tədqiqat metodları.** Dissertasiya işinin metodoloji əsasını yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın və narkocinayətlərin, narkomanlığı müşayiət edən hadisə və proseslərin idrakına dialektik yanaşma təşkil edir. Elmi araşdırma gedişində həmçinin, statistik müşahidə, analiz və sintez, sistemli-struktur, formal-hüquqi, müqayisəli-hüquqi, müqayisəli-coğrafi, konkret-sosioloji və sair kimi ümumi və xüsusi elmi metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın elmi yeniliyi müdafiəyə çıxarılan aşağıdakı müddəalarda ifadə olunur:

1. Azərbaycan Respublikasının CM-nin 26-cı fəslinə, əsasən də 234-cü maddəsinə son illərdə edilən çoxsaylı əlavə və dəyişikliklər edilməsinə baxmayaraq, cinayət qanunvericiliyinin bu sahəsində təkmilləşdirilmə prosesi davam etməlidir. Bu məqsədlə dissertasiyada təklif olunur:

- "Satış məqsədi olmadan narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarını əldə etmə, saxlama, hazırlama, emal etmə və daşıma" adında 234-cü maddənin yeni redaksiyası",

- "Satış məqsədilə narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarını əldə etmə, saxlama, hazırlama, istehsal etmə, daşıma, göndərmə və ya satma" adlı yeni 234-1-ci maddənin əlavə edilməsi",

- "Narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının hazırlanmasında və emalında istifadə etmək məqsədilə prekursorları əldə etmə, saxlama, hazırlama, göndərmə, daşıma və ya satma" adlı yeni 234-2-ci maddənin əlavə edilməsi",

- "Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların analoqlarının qeyri-tibbi məqsədlərlə istehlakını və ya onların qanunsuz dövriyyəsini təbliğ və ya reklam etmə" adlı yeni 234-3-cü maddənin əlavə edilməsi",

- CM-nin 236.2-ci maddəsinə "236.2.5. İnternet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən (sosial şəbəkələr də daxil olmaqla) istifadə etməklə törədildikdə" yeni tövsifedici və "236.3-1. Bilə-bilə 14 yaşına çatmayan şəxs barəsində törədildikdə" kimi yeni xüsusilə tövsifedici tərkiblərin əlavə edilməsi,

- CM-nin 238-ci maddəsinə "238.3.18 Yetkinlik yaşına çatmayan şəxsə (şəxslərə) narkotik vasitələrin və psixotrop maddələrin istehlakı üçün bina (mənzil) vermə" kimi yeni tövsifedici tərkibin əlavə edilməsi,

- CM-nin 26-cı fəslin müvafiq maddələrində iştirakçılığın müxtəlif formalarının ictimai təhlükəlilik dərəcəsinin fərqli olmasını nəzərə alaraq, "qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə" cinayətin tövsifedici, "mütəşəkkil dəstə tərəfindən törədildikdə" isə xüsusi tövsifedici hallar kimi müəyyən edilməli və bununla bağlı cinayət qanunvericiliyinin bir sıra maddələrində (məsələn, 236, 237, 238-ci maddələrdə) uyğun dəyişikliklər edilməlidir.

Fikrimizcə, yuxarıda təklif olunan dəyişiklik və əlavələr satışla müqayisədə ictimai təhlükəliliyi daha aşağı olan əməlləri (hərəkətləri) fərqləndirməyə, ümumiyyətlə cinayət məsuliyyətinin daha dəqiq diferensiasiyasını həyata keçirməyə imkan verəcəkdir.

2. Narkotik tərkibli yeni sintetik maddələrin yaradılması ilə bağlı cinayətkar fəaliyyətin onlara qarşı hüquq-mühafizə orqanlarının

mübarizəsini həmişə üstələdiyini, həmçinin postsovet məkanında yaradılan bir çox xarici dövlətlərin (RF, Ukrayna, Belarus, Gürcüstan, Özbəkistan, Qırqızıstan, Qazaxıstan və s.) qanunverici təcrübəsini nəzərə alaraq, Azərbaycan Respublikasının CM-də narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin predmeti qismində narkotik vasitələrin və psixotrop maddələrlə yanaşı, həmçinin onların analoqlarının daxil edilməsi təklif olunur. Analoqlar faktiki olaraq insan orqanizminə təsirinə görə tibbi amilə sahib olan, lakin hələ narkotik vasitələr və ya psixotrop maddələr üçün hüquqi amili olmayan maddələrdir (preparatlar).

3.Xarici ölkələrin (ABŞ, Böyük Britaniya, RF, Gürcüstan və s.) təcrübəsi, beynəlxalq təşkilatların, xüsusən də BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin mövqeyi, son illərdə narkotik vasitələr, psixotrop maddələr və onların analoqları olmayan və "yeni psixoaktiv maddələr" adlandırılan maddələrin və preparatların qanunsuz dövriyyəsi sahəsində müşahidə olunan neqativ meyillər nəzərə alınmaqla CM-nə "Güclü təsir edən yeni psixoaktiv maddələrin satışının qanunsuz dövriyyəsi" adı altında yeni 240-1-ci maddənin daxil edilməsi və bu maddədə "İctimai yerlərdə, habelə təhsil və tibb müəssisələrində törədildikdə" və "mediadan, informasiya telekommunikasiya şəbəkələrindən (sosial şəbəkələr və İnternet şəbəkəsi də daxil olmaqla) istifadə etməklə törədildikdə" kimi tövsifedici tərkiblərin nəzərdə tutulmasını təklif edirik.

4.Yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və narkomanlığın səbəbiyyət kompleksi onları determinə edən amillər məcmusu olan ailə, məktəb və yaxın çevrə kimi mikromühitlə, həmçinin hər bir yetkinlik yaşına çatmayanın fərdi psixofizioloji xüsusiyyətləri ilə sıx korrelyasion asılılıqdadır. Bu məqsədlə, narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı kriminal əməlləri törədən yetkinlik yaşına çatmayanlara münasibətdə bərpaedici ədalət mühakiməsi konsepsiyasının praktiki reallaşdırılmasını təklif edirik.

5.Ümumtəhsil müəssisələrində və ali məktəblərdə narkomanlığın profilaktikası üzrə Şuraların yaradılması və bu şuraların tərkibinə təhsil müəssisələrinin rəhbərliyinin nümayəndələri

ilə yanaşı, tibb işçilərinin, psixoloq, sosioloq və digərlərinin daxil edilməsi təklif edirik.

6.Daxili işlər və prokurorluq orqanlarında, həmçinin Sosial Tədqiqatlar Mərkəzinin ştat tərkibində kriminoloq ştatının nəzərdə tutulması və kriminoloqun vəzifələr kompleksinə digərləri ilə yanaşı, müəyyən ərazidə və regionda narkomanlığın və narkotik cinayətkarlığın vəziyyəti, strukturu və dinamikasının sistemli və kompleks analizinin həyata keçirilməsi, o cümlədən bu sahədə əsas meyillərin və qanunauyğunluqların üzə çıxarılması ilə bağlı araşdırmaların və təhlillərin aparılmasının daxil edilməsi.

7.Narkotik vasitələri və psixotrop maddələri qəbul edən şəxslərin müalicəsinin, reabilitasiyasının, readaptasiyasının və resosializasiyası üzrə effektiv tədbirlər sisteminin işlənib hazırlanması, hər bir regionda narkomaniya xəstəliyinə düçar olmuş şəxslər üçün tibbi və sosial-psixoloji reabilitasiya və resosializasiya mərkəzlərinin yaradılmasını təklif edirik.

8.Narkomanlığın qarşısının alınması, narkotik istifadəçilərinin müalicəsi, reabilitasiyası və resosializasiyası üzrə Fondun yaradılması, həmçinin fondun idarə heyətinin tərkibinə Səhiyyə, Elm və Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupunun, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və qeyri-hökumət təşkilatarının səlahiyyətli nümayəndələri və digərlərinin daxil edilməsini təklif edirik.

9.Hesab edirik ki, xüsusi olaraq "Yetkinlik yaşına çatmayanlar arasında narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin profilaktikası Konsepsiyası" hazırlanmalı, bu konsepsiya əsasında yeniyetmələrin narkocinayətkarlığında, yetkinlik yaşına çatmayanların nakotizasiyası səviyyəsində mövcud regional fərqlər, hər bir region üzrə sosial-iqtisadi, demoqrafik, mədəni və s. xüsusiyyətlər nəzərə alınmaqla, yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması strategiyası, fəaliyyət planları işlənib hazırlanmalı və reallaşdırılmalıdır. Bunu nəzərə alaraq, "Azərbaycan Respublikasında narkomanlığa, narkotik vasitələrin və psixotrop

maddələrin, onların analoqlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Milli Strategiyası" Layihəsi təklif edilir.

10.Narkomanlığın profilaktikasında yetkinlik yaşına çatmayanlara istiqamətlənmiş ilkin xəbərdarlıq tədbirləri xüsusi önəm kəsb etməli, bununla bağlı xüsusi məktəb proqramları işlənib hazırlanmalı və bu proqramlar çərçivəsində narkotik vasitə və psixotrop maddələrin yetkinlik yaşına çatmayanların mənəvi və fiziki, sağlamlığına, gələcək perspektivlərinə, sosial-psixoloji vəziyyətinə zərəri barədə maarifləndirmə, habelə antinarkotik təbliğat tədbirlərinin və onların reallaşdırılması mexanizmləri nəzərdə tutulmalıdır.

11.Azərbaycan Respublikası Narkomanlığa və Narkotiklərə Nəzarət üzrə Milli İnformasiya Mərkəzinin (və ya Agentliyin) və onun 14 iqtisadi rayonlar üzrə bölmələrinin yaradılması, narkomanlığın profilaktikası üzrə onun tərkibində sosioloq, psixoloq və kriminoloqlardan ibarət xüsusi bölmələrin nəzərdə tutulması məqsədəuyğun hesab edilməlidir.

12.Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının Əsasnaməsi 1997-ci ildə, yəni 25 il bundan əvvəl qəbul edilmişdir və müasir reallıqları, eləcə də son bir neçə onillikdə baş verən dəyişiklikləri tam şəkildə əks etdirmir. Komissiyanın Əsasnaməsi müasir reallıqlara, dəyişmiş sosial-iqtisadi və hüquqi münasibətlər şəraitinə, qloballaşmanın xarakterik meyillərinə uyğun olaraq yenidən işlənilməli, Komissiyanın daimi fəaliyyət göstərən İşçi qrupunun maddi-texniki və kadr təminatı gücləndirilməli, hüquq və vəzifələr dairəsi genişləndirilməlidir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi ondan ibarətdir ki, dissertasiya Azərbaycan Respublikasının cinayət hüququ və kriminologiya elmində bilavasitə yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın, narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin kriminoloji və cinayət-hüquqi xarakteristikasının, müasir şəraitlərdə yeniyetmələr arasında narkomanlığın və narkocinayətlərin vəziyyəti, strukturu və dinamikasının, səbəblərinin və onları şərtləndirən amillər kompleksinin müəyyən edilməsi əsasında yetkinlik yaşına

çatmayanlar arasında narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin qarşısının alınmasının əsas istiqamətlərinin müəyyən edilməsinə, profilaktik tədbirlərin səmərəliliyinin yüksəldilməsinə yönəlmiş təşkilati, sosial-psixoloji və xüsusi-kriminoloji xarakterli tədbirlər kompleksinin işlənib hazırlanmasına, bu istiqamətdə mövcud cinayət qanunvericiliyinin sistemli təhlili əsasında narkocinayətlərə görə məsuliyyət nəzərdə tutan cinayət qanunvericiliyinin təkmilləşdirilməsi üzrə konkret təklif və tövsiyələrin işlənib hazırlanmasına həsr olunmuş monoqrafik xarakterli ilk işlərdən biridir. Qeyd edilən problemlər orijinal obyekti olaraq, geniş planda müqayisəli və sistemli şəkildə araşdırmaya cəlb edilmişdir.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Elmi araşdırmanın nəzəri və təcrübi əhəmiyyəti tədqiqatın gedişatında əldə edilən nəticələrin, müdafiəyə təqdim olunmuş müddəaların, irəli sürülmüş təklif və tövsiyələrin aşağıdakı istiqamətlərdə istifadə olunması ilə şərtlənir:

- Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin profilaktikası üzrə dövlət orqanlarının, ictimai təşkilatların praktiki fəaliyyətində;
- Ali təhsil müəssisələrinin hüquq fakültələrində tədris prosesində, "Yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın profilaktikasının, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin qarşısının alınmasının cinayət-hüquqi və kriminoloji əsasları" mövzusunda xüsusi kursların aparılmasında;
- Yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin qarşısının alınması və profilaktikası istiqamətində aparılan elmi tədqiqatlarda;
- Yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın və narkocinayətkarlığın qarşısının alınması və profilaktikasının normativ-hüquqi əsaslarını tənzimləyən qanunvericilik sisteminin, bu sahədə xüsusi proqramların, konsepsiyaların və strategiyalarının hazırlanması və təkmilləşdirilməsində.

**Aprobasiyası və tətbiqi**. Dissertasiya işinin başlıca nəticələri, müdafiəyə çıxarılan əsaslandırılmış elmi müddəalar, konkret təklif və tövsiyələr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan elmi jurnallarda məqalələr şəklində dərc olunmuş, həmçinin beynəlxalq elmi-praktiki konfrans və seminarlarda məruzə olunmuş, məktəblilər və tələbələrlə keçirilən müxtəlif təlimlərdə tətbiq olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölməsinin ayrılıqda həcmi və dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya, mətndəki boşluqlar nəzərə alınmadan, 282 310 işarədən, I Fəsil 68 194, II Fəsil 96 876, III Fəsil 67 053 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiyanın giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın elmi işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın strukturu haqqında məlumat verilir.

**Birinci fəsil** "Yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin ümumi səciyyəsi" adlanır və iki paraqrafdan ibarətdir.

"Yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin ictimai təhlükəliliyi" kimi adlanan **birinci paraqrafda** yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin ictimai təhlükəliliyinin təhlil aparılır.

Son illər dünyanın bütün ölkələrinin və regionlarının üzləşdiyi, transmilli mütəşəkkil cinayətkarlığın, onun ən müxtəlif forma və növlərinin tüğyan etdiyi müasir şəraitdə narkotiklərin qanunsuz dövriyyəsinin dünya miqyasında geniş yayılması, narkomaniya bəşəriyyətin ən qlobal problemlərindən birinə çevirmişdir. İctimai

təhlükəliliyi olduqca yüksək olan, qloballaşan dünyada hər bir ölkənin vacib təhlükəsizlik problemlərindən birinə çevrilən problemlərdən biri də yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın, narkotik vasitəlrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin sürətlə yayılmasıdır.

Məsələn, təkrar, külli miqdarda, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə tərəfindən törədilmə; şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilmə; həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədilmə; bilə-bilə yetkinlik yaşına çatmayana, iki və ya daha çox şəxs barəsində törədilmə; kütləvi informasiya vasitələrindən, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədilmə; yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma; narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı əməlləri təhsil və ya tibb müəssisələrində, eləcə də cəzaçəkmə müəssisələrində, yaxud həbs yerlərində törətmə və s. göstərmək olar.

"Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı əməllərə görə məsuliyyət müəyyən edən xarici ölkələrin cinayət qanunvericiliyinin müqayisəli-hüquqi analizi" kimi adlanan **ikinci paraqrafda** Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı əməllərə görə məsuliyyət müəyyən edən xarici ölkələrin cinayət qanunvericiliyinin müqayisəli-hüquqi analizi təhlil edilr.

Birinci qrupa "yumşaq" (liberal) qanunvericilik sistemi ilə səciyyələnən ölkələr daxildir (Avstriya, İsveçrə, İtaliya, Niderland, Portuqaliya, Danimarka, İspaniya, Estoniya və s.). Bu dövlətlərdə bir qayda olaraq, narkotiklərin qeyri-tibbi məqsədlərlə istehakına görə cinayət məsuliyyəti nəzərdə tutulmamışdır, kannabis məhsullarının qanunsuz dövriyyəsi ilə bağlı əməllərə görə isə daha yüngül sanksiyalar müəyyən edilmişdir. Eyni zamanda, güclü təsir edən narkotik vasitələri hazırlama və satma əməllərinə görə sərt cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

İkinci qrupa qanunvericilik sistemi daha rasional və diferensiallaşdırılmış olan ölkələr daxildir (Böyük Britaniya, İsrail, Fransa, ABŞ, Yaponiya, Belçika, Yunanıstan və s.). Bu ölkələrdə

narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə sanksiyalar törədilmiş cinayətin xarakterinə və ağırlıq dərəcəsinə görə optimallaşdırılmışdır.

Üçüncü qrupa narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə görə ömürlük azadlıqdan məhrum etmə və ölüm cəzasına qədər sərt sanksiyaları nəzərdə tutan qanunvericiliyin mövcud olduğu ölkələri aid etmək olar (Vyetnam, Banqladeş, İran, ÇXR, Kuba, Malayziya, Pakistan, BƏƏ, Səudiyyə Ərəbistanı, Sinqapur, Tailand) və s. misal gətirmək olar.

Qeyd olunanları nəzərə alaraq, bir sıra Qərb (İspaniya, Danimarka, Avstriya, Bolqarıstan, ABŞ, Böyük Britaniya, Almaniya) və postsovet ölkələrində, həmçinin ÇXR və Türkiyədə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə görə məsuliyyət nəzərdə tutan cinayət qanunvericiliyinin müqayisəli-hüquqi təhlilini məqsədəuyğun hesab edirik.

**İkinci fəsil** "Yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizənin problemləri" iki paraqrafdan ibarətdir.

"Yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət qanunvericiliyinin təkmilləşdirilməsinin əsas istiqamətləri" kimi adlanan **birinci paraqrafda** yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət qanunvericiliyinin təkmilləşdirilməsinin əsas istiqamətlərinin təhlili aparılır.

Qanunverici hesab edir ki, 14 yaşından yeniyetmə talamanın spesifik predmeti olan narkotik vasitələrin və psixotrop maddələrin ələ keçirilməsinin ictimai təhlükəliliyi dərk etmək, narkotik vasitələrin satışında iştirak edərkən öz hərəkətlərinin qanunazidd olduğunu tam həcmdə və dərəcədə başa düşmək iqtidarındadır. Halbuki cinayət qanunvericiliyinə görə, narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı əməlləri, o cümlədən onların satışı ilə bağlı hərəkətlərin ictimai təhlükəliliyini şəxs yalnız 16 yaşdan başlayaraq dərk etmək imkanına malikdir. Hesab edirik ki, burada açıq-aydın uyğunsuzluq vardır və bu uyğunsuzluq qanunverici tərəfindən aradan qaldırılmalıdır.

Təhlil göstərir ki, qanunverici tərəfindən az ağır cinayətlər kateqoriyasına aid edilən bir sıra cinayət əməllərinin (məsələn, satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri xeyli miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma) ictimai təhlükəliliyi o qədər də yüksək deyildir və onlar böyük ictimai təhlükə törətməyən cinayətlərə aid edilə bilərlər. Hesab edirik ki, buna uyğun olaraq qanunvericilikdə müvafiq dəyişiliklər və düzəlişlər aparılmalıdır.

"Yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin subyekti kimi: kriminoloji təhlil" kimi adlanan **ikinci paraqrafda** yetkinlik yaşına çatmayanlar narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin subyekti kimi: kriminoloji təhlili tədqiq olunur.

Statistik məlumatların təhlili əsasında Azərbaycanda narkovəziyyətin əsas meyilləri sırasında xüsusi olaraq qeyd edilə bilər: cinayətkarlığın ümumi strukturunda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin sabit artımı; qeyd olunan kateqoriyalı cinayətlərin yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilməsi hallarının artması; narkotik vasitələrin yeni daha təhlükəli (yüksək konsentrasiyalı) növlərinin meydana gəlməsi; narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin sabit regionlararası və beynəlxalq əlaqələri olan mütəşəkkil transmilli qruplaşmalar tərəfindən törədilməsi hallarının müşahidə olunması; müsadirə olunan narkotiklərin həcminin əhəmiyyətli artımı; ənənəvi narkotiklərin sintetik narkotik vasitələrlə, həmçinin yeni potensial təhlükəli psixoaktiv maddələrlə aktiv şəkildə əvəzlənməyə başlanması; son illərdə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər arasında xarici vətəndaşların xüsusi çəkisinin artması; narkotik istifadəçilər tərəfindən törədilən cinayətlərin sayında artım meyillərinin qeydə alınması; xarici ölkələrdən respublika ərazisinə yeni növ narkotik vasitələrin və psixotrop maddələrin gətirilməsi və yayılması hallarının artması; yetkinlik yaşına çatmayanlar arasında psixostimulyatorlardan, MDMA, amfetamin və metamfetamin kimi psixotrop maddələrdən istifadə hallarının sürətlə artması; narkocinayətlərə görə cinayət

məsuliyyətinə cəlb edilmiş qadınların sayının və narkocinayətkarların ümumi strukturunda xüsusi çəkisinin artması və s. amilləri göstərmək olar.

İki paraqrafdan ibarət **Üçünçu fəsildə** "Yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətkarlıq" təhlil olunur.

"Yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətkarlıq: səbəb və şərait" kimi adlanan **birinci paraqrafda** yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətkarlıq: səbəb və şəraiti təhlil olunur.

Yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin səbəb və şəraitlərinin, onları determinə edən amillər kompleksinin müəyyən edilməsində sosioloji sorğuların keçirilməsi və bu sorğuların ümumiləşdirilməsi də mühüm əhəmiyyət kəsb edir.

Sosioloji tədqiqatların nəticələri göstərir ki, yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və narkomanlığın səbəbiyyət kompleksi, onları determinə edən amillər məcmusu ailə, məktəb və yaxın çevrə kimi mikromühitlə hər bir şəxsin fərdi psixo-fizioloji xüsusiyyətləri, xassə və keyfiyyətləri ilə sıx korrelyasion asılılıqdadır. Məhz insanın psixo-fizioloji keyfiyyət və xüsusiyyətləri ilə sosial-iqtisadi, hüquqi, təşkilati və sair xarakterli amillərin, insanı əhatə edən mikromühitin qarşılıqlı təsiri cinayətlərin, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin, həmçinin narkomanlığın meydana gəlməsi üçün şərait yaradır.

"Yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətkarlığın qarşısının alınması və profilaktikası" kimi adlanan **ikinci paraqrafda** yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətkarlığın qarşısının alınması və profilaktikası tədqiq olunur.

Yetkinlik yaşına çatmayanlar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar

cinayətkarlıqla mübarizə kimi mürəkkəb problemin elmi-praktiki həlli üçün dövlət konsepsiyası, cinayətkarlıqla mübarizənin strategiya və taktikasını özündə əks etdirən kompleks proqramlar, fəaliyyət planları işlənib hazırlanmalıdır. Aparılan araşdırmalardan göründüyü kimi, ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Türkiyə və s. kimi ölkələrdə kompleks proqramların yaradılması üçün müəyyən təcrübə toplanmış, narkomanlığın, yeniyetmə və gənclər arasında narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasına istiqamətlənmiş müxtəlif səviyyəli proqramlar işlənib hazırlanaraq həyata keçirilir.

Burda əsasən "risk qrupu"na daxil edilən yetkinlik yaşına çatmayanların narkotik vasitələrdən qəbul edib-etməmələrinin müəyyən edilməsi üçün testlərdən istifadə edilir, tibbi-narkoloji müayinələr keçirilir. Məsələn, İsveç, Böyük Britaniya və s. kimi ölkələrdə bəzi özəl məktəblərdə yetkinlik yaşına çatmayanların narkotik istifadəçisi olub-olmamasının müəyyən edilməsi üçün testlər aparılır. Azərbaycanın təhsil müəssisələrində, xüsusən də orta ümumi təhsil məktəblərinin yuxarı sinif şagirdlərinin və ali məktəblərin tələbələrinin mütəmadi qaydada narkoloji müayinədən keçirilmələri və bu yolla narkotik istifadəçilərinin real sayının müəyyən edilməsi məqsədəuyğun hesab edilməlidir.

**Dissertasiyanın "Nəticə" hissəsində** əldə edilmiş mühüm təklif və nəticələr ümumiləşdirilir və işin yekunları göstərilir.

Belə ki, **nəticədə** statistik təhlillər əsasında Azərbaycanda narkovəziyyətin əsas meyilləri kimi aşağıdakılar qeyd edilir: narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin sabit artımı; bu cinayətlərin yetkinlik yaşına çatmayanlar tərəfindən törədilməsi hallarının artması; narkotik vasitələrin yeni, daha təhlükəli (yüksək konsentrasiyalı) növlərinin meydana gəlməsi; bu cinayətlərin sabit regionlararası və beynəlxalq əlaqələri olan mütəşəkkil transmilli qruplaşmalar tərəfindən törədilməsi hallarının müşahidə olunması; ölkə ərazisində müsadirə olunan narkotik vasitələrin və psixotrop maddələrin böyük hissəsinin İİR-dan daxil olması; ənənəvi narkotiklərin sintetik narkotik vasitələrlə, həmçinin yeni potensial təhlükəli psixoaktiv maddələrlə aktiv şəkildə əvəzlənməsi; son illərdə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər

arasında xarici ölkə vətəndaşlarının xüsusi çəkisinin artması; narkotik istifadəçiləri tərəfindən törədilən cinayətlərin sayında artım meyillərinin qeydə alınması; xarici ölkələrdən respublika ərazisinə yeni növ narkotik vasitələrin və psixotrop maddələrin gətirilməsi və yayılması hallarının artması; yetkinlik yaşına çatmayanlar arasında psixostimulyatorlardan, MDMA, amfetamin və metamfetamin kimi psixotrop maddələrdən istifadə hallarının artması və s.

Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunun təkmilləşdirilməsi məqsədilə CM-nin 26-cı fəslinə bir sıra dəyişiklik və əlavələrin edilməsi təklif olunur (onların məzmunu müdafiəyə təqdim edilən müddəalarda yer almışdır).

Bundan əlavə, narkotik vasitələrin və psixotrop maddələrin analoqlarının nortmativ qaydada narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin predmeti hesab edilməli olması; CM-in tədqiqat predemti olmuş bir sıra normasında əməlin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsinin cinayətin tövsifedici. mütəşəkkil dəstə tərəfindən törədilməsinin isə xüsusilə tövsifedici əlamət kimi müəyyən edilməli olması; CM-ə "Güclü təsir edən yeni psixoaktiv maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi" adlı yeni maddənin daxil edilməli və bu maddədə "ictimai yerlərdə, habelə təhsil və tibb müəssisələrində törədildikdə" və "mediadan, informasiya telekommunikasiya şəbəkələrindən (sosial şəbəkələr və İnternet şəbəkəsi də daxil olmaqla) törədildikdə" kimi tövsifedici tərkiblərin nəzərdə tutulmalı olması; narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin törədilməsinə yetkinlik yaşına çatmayanların cəlb edilməsi əməllərinə görə cinayət məsuliyyətinin sərtləşdirilməsi məqsədilə CM-ə belə bir maddənin daxil edilməli olması və ya CM-in 234-cü maddəsində bununla bağlı xüsusi tövsifedici əlamətin nəzərdə tutulmalı olması haqqında fikirlər əsaslandırılır.

Baxılan cinayətlərə qarşı mübarizənin əsas təşkilati istiqamətləri kimi aşağıdakılar qeyd edilir: yetkinlik yaşına çatmayanlara münasibətdə bərpaedici ədalət mühakiməsi konsepsiyasının praktiki reallaşdırılması təmin edilməli, habelə ailə məhkəmələri sistemi yaradılmalıdır; ümumtəhsil müəssisələrində və

ali məktəblərdə narkomanlığın profilaktikası üzrə Şuralar yaradılmalı və bu şuraların tərkibinə təhsil müəssisələrinin rəhbərliyinin nümayəndələri ilə yanaşı tibb işçiləri, psixoloqlar, sosioloqlar və digərləri daxil edilməlidir; daxili işlər və prokurorluq orqanlarında, Sosial Tədqiqatlar Mərkəzində kriminoloq ştatı nəzərdə tutulmalı və onun vəzifələri sırasında müəyyən ərazidə və ya regionda narkomanlığın və narkotik cinayətkarlığın vəziyyəti, strukturu və dinamikasının sistemli və kompleks analizinin həyata keçirilməsi, bu sahədə əsas meyillərin və qanunauyğunluqların üzə çıxarılması ilə bağlı araşdırmaların və təhlillərin aparılması daxil edilməlidir; regionlarda narkomaniya xəstəliyinə düçar olmuş şəxslər üçün tibbi və sosial-psixoloji reabilitasiya, resosializasiya və reinteqrasiya mərkəzləri yaradılmalıdır; narkomanlığın qarşısının alınması, narkotik istifadəçilərin müalicəsi, reabilitasiyası və resosializasiyası üzrə Fond yaradılmalıdır; "Yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin profilaktikası Konsepsiyası" hazırlanmalıdır; narkotik qəbul etməyən əhaliyə istiqamətlənmiş ilkin xəbərdarlıq tədbirləri xüsusi önəm kəsb etməlidir, bununla bağlı xüsusi məktəb proqramları işlənib hazırlanmalıdır.

Yetkinlik yaşına çatmayanlar arasında narkomanlığın, onlar tərəfindən törədilən narkocinayətlərin qarşısının alınması və profilaktikasının konseptual, cinayət-hüquqi, sosial-kriminoloji və təşkilati-metodiki əsaslarının işlənib hazırlanması məqsədilə qeyd olunanlarla yanaşı, aşağıdakı məsələlər kompleksinin elmi həlli və praktiki reallaşdırılmasının zəruriliyi əsaslandırılır: narkotiklərlə bağlı kriminal fəaliyyətin mütəşəkil formalarına görə cinayət məsuliyyətinin daha da sərtləşdirilməsi; profilaktik işi həyata keçirən subyektlərin qarşılıqlı əlaqəli fəaliyyətinin effektivliyinin artırılması, yetkinlik yaşına çatmayanlar üçün islah müəssisələrinin ikili tabeliyə (həm Ədliyyə, həm də Elm və Təhsil nazirliklərinin tabeliyinə) keçməsi; hər il keçirilən tibbi müayinə çərçivəsində narkotik vasitələri istehlak edən şəxslərin erkən mərhələdə üzə çıxarılması məqsədilə məcburi testləşdirmənin həyata keçirilməsi; regionlarda narkovəziyyətin monitorinqi, sistemli-analitk təhlili və proqnozlaşdırılmasının elmi-əsaslı metodikasının işlənib

hazırlanması və praktikada tətbiqi; ümumi təhsil məktəblərinin həyətlərində, məktəbyanı ərazilərdə təhlükəsiz şəhər kameralarının yerləşdirilməsi; narkotik vasitə qəbul etməyən əhaliyə istiqamətlənmiş ilkin xəbərdarlıq tədbirlərinin, yəni maarifləndirmə, antinarkotik təbliğat tədbirlərinin genişləndirilməsi; valideynlər üçün xüsusi seminarların keçirilməsi.

İşin nəticə hissəsində əldə edilmiş əsas nəticələr ümumiləşdirilir və tədqiqatın yekunları göstərilir.

**Əlavələrdə** statistik məlumatlar və aprobasiya aktlarının surətləri yer almışdır.

**Dissertasiyanın mövzu ilə bağlı müəllifin aşağıdakı əsərləri dərc olunmuşdur:**

1. Narkomaniya beynəlxalq təhlükəsizliyin və terrorizmin yaradılmasında ciddi faktordur // "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Qloballaşma və Azərbaycan Respublikasında hüquq elminin əsas inkişaf istiqamətləri" Beynəlxalq elmi-praktiki konfransın materialları // Bakı: 2018, s.232-234;
2. Ümumtəhsil məktəblərdə və məktəbdənkənar tərbiyə müəssisələrində narkomaniya ilə mübarizənin aktual məsələləri // Bakı Dövlət Universitetinin Hüquq fakultəsinin 90 illik yubileyinə həsr olunmuş "Azərbaycan Respublikasının beynəlxalq cəmiyyətə inteqrasiyası və hüquqi dövlət quruculuğunda hüquq elminin müasir inkişaf tendensiyaları" Beynəlxalq elmi-praktiki konfransın materialları // Bakı: 2018, s.381-384;
3. Narkomaniya və onun törətdiyi fəsadlar, aparılan mübarizə tədbirləri // Bakı: Polis Akademiyasının Elmi Xəbərləri. 2019, №1 (21).s.32-37;
4. Yetkinlik yaşına çatmayanlar və gənclər arasında narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin bəzi aktual cinayət-hüquqi və kriminoloji aspektləri // Cinayət hüququnun aktual problemləri (elmi

məqalələr məcmusu). Ş.T.Səmədovanın umumi redaktəsi ilə // Bakı: Mütərcim, 2022, s.194-207;

5. Küreselleşme devrinde ergenlik çağına erişmeyen ve gençler arasında uyuşturucu bağımlığının güncel durumu ve hususi yönelimleri // Euroasia journal of Social Sciences &humanities. 31.08.2022. Vol: 9, İssue: 27.pp.29-40;

6. Azərbaycan dövlətinin narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə beynəlxalq təşkilatlarla əməkdaşlığı//İnternational conference: XXI century, new challenges and modern development tendencies of law. Baku state university // Baku: 2022, s.199-205;

7. Актуальные проблемы предотвращение незаконного оборота наркотических средств и психотропных веществ среди подростков и молодежи // Международный научный журнал «Верховенство права. 2022, №1, с.134-142;

8. Некоторые специфические статистические и криминологические особенности состояния и динамики наркотизма среди несовершеннолетних и молодежи в мире и в Азербайджане//Право и государство: теория и практика. 2022, №6 (210). с.105-110;

9. Роль и значение международных организаций в борьбе против наркомании и незаконного оборота наркотических средств // Conferinta Ştintiefica internationala "İnfractiunea-Raspunderea penala- pedeapsa drept şi criminologe". 24-25 marte 2022, Chişinau, Republica Moldova: p.259-266;

10. Yetkinlik yaşına çatmayanlar və gənclər arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin ictimai təhlükəliliyi // Bakı: Polis Akademiyasının Elmi Xəbərləri. 2023, № 1 (37) s.17-29;

11. Yetkinlik yaşına çatmayanlar arasında narkomanlıq, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətkarlıq: səbəb və şərait // Bakı: Qanun Elmi hüquq jurnalı. 2023, №9 (347), s.84-94;

12. Актуальные проблемы противодействия незаконному обороту наркотических средств и психотропных веществ среди несовершеннолетних // Стратегические направления

противодействия преступности на национальном и транснациональном уровнях. Сборник научных трудов. 2023, с.117-121;

13. Azərbaycan Respublikasının narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin, onların analoqlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Milli Strategiyası // Bakı: Qanun Elmi hüquq jurnalı. 2024, №11 (361), s.60-69;

14. Некоторые аспекты противодействия наркомании и незаконному обороту наркотиков среди несовершеннолетних // Bakı: Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. 2025, elmi əsərlər məcmuəsi, № 69, s.60-63.

Dissertasiyanın müdafiəsi 11 04 2025-ci il tarixində, saat 11:00 - da Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Mərdəkan pr. 30.

Dissertasiya işi ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 10 03 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.03.2025
Kağızın formatı: 60x84 1/16
Həcm: 51.136 işarə
Tiraj: 100